İQTİSAD elmləri

UOT: 338.43:633.51:339.13
DOI: https://doi.org/10.30546/19063.2026.06.5351

AZƏRBAYCAN PAMBIĞININ BEYNƏLXALQ BAZARLARDA RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

LEYLA İNTİQAM QIZI TAĞIYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Humanitar fənlər kafedrası, iqitsad üzrə fəlsəfə doktoru, müəllim
Azərbaycan Respublikası, Bakı ş. İstiqlaliyyət küçəsi, 6
E-mail: Leyla_Tagiyeva@unec.edu.az
ORCID: 0009-0000-0662-017X

XÜLASƏ

Məqalədə Azərbaycan pambığının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılması problemləri və onların həlli istiqamətləri araşdırılmışdır. Müasir şəraitdə qlobal kənd təsərrüfatı bazarlarında rəqabətin güclənməsi pambıq istehsalçısı olan ölkələr qarşısında yeni çağırışlar formalaşdırır. Tədqiqat çərçivəsində Azərbaycan pambıqçılığının mövcud vəziyyəti təhlil edilmiş, beynəlxalq bazarlarda rəqabət üstünlüklərinin formalaşmasına təsir edən amillər müəyyən edilmişdir. Eyni zamanda pambıq məhsullarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, emal sənayesinin inkişafı, logistika infrastrukturunun təkmilləşdirilməsi və beynəlxalq standartların tətbiqi istiqamətində təkliflər hazırlanmışdır. Araşdırmanın nəticələri göstərir ki, pambıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi qeyri-neft ixracının genişlənməsinə, regionların sosial-iqtisadi inkişafına və ölkənin valyuta gəlirlərinin artmasına əhəmiyyətli töhfə verə bilər.

Açar sözlər: *pambıqçılıq, pambıq ixracı, rəqabət qabiliyyəti, beynəlxalq bazar, aqrar sektor, emal sənayesi, logistika, sertifikatlaşdırma.*

GİRİŞ

Müasir dövrdə aqrar məhsullar bazarında rəqabətin güclənməsi kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və ixrac potensialının artırılmasını zəruri edir. Bu baxımdan pambıqçılıq Azərbaycan iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyan sahələrdən biridir.

Azərbaycan tarixən pambıq istehsalı üzrə ixtisaslaşmış ölkələrdən biridir. Əlverişli torpaq-iqlim şəraiti və dövlət dəstəyi pambıqçılığın inkişafına şərait yaradır. Son illərdə həyata keçirilən tədbirlər nəticəsində əkin sahələri və istehsal həcmi artmışdır. [1;2;3]. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2024-cü ildə ölkədə pambıq əkin sahələri 119,2 min hektara, ümumi məhsul istehsalı isə 315,8 min tona çatmışdır ki, bu da sahənin strateji əhəmiyyətini bir daha təsdiq edir.

Qlobal pambıq bazarında baş verən dəyişikliklər və ekoloji tələblərin artması Azərbaycan pambıqçılığı qarşısında yeni vəzifələr müəyyənləşdirir. Beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artırılması üçün məhsul keyfiyyətinin yüksəldilməsi, emal səviyyəsinin artırılması və müasir marketinq yanaşmalarının tətbiqi vacibdir.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı strategiyasında ixrac potensialının artırılması əsas prioritet istiqamətlərdən biridir. Bu baxımdan pambıq məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi həm iqtisadi, həm də sosial baxımdan mühüm əhəmiyyət kəsb edir [3; 8].

Tədqiqatın məqsədi Azərbaycan pambığının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinə təsir göstərən amillərin müəyyən edilməsi və onun yüksəldilməsi istiqamətində təkliflərin hazırlanmasından ibarətdir. Tədqiqat çərçivəsində rəqabət qabiliyyətinə təsir edən əsas amillər sistemləşdirilmiş və prioritet inkişaf istiqamətləri müəyyən edilmişdir.

Tədqiqat zamanı müqayisəli təhlil, statistik qruplaşdırma, iqtisadi təhlil, sistemli yanaşma və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

1. PAMBIQ MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Müasir iqtisadi nəzəriyyədə rəqabət qabiliyyəti anlayışı müəssisənin, sahənin və ya ölkənin bazar şəraitində rəqiblərlə müqayisədə üstün mövqe tutmaq qabiliyyətini ifadə edir [12]. Aqrar məhsulların rəqabət qabiliyyəti isə məhsulun qiymət, keyfiyyət, ekoloji təhlükəsizlik, logistika və marketinq göstəricilərinin məcmusu əsasında formalaşır.

Kənd təsərrüfatı məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinə təsir edən amillər sırasında istehsal xərcləri, məhsuldarlıq səviyyəsi, dövlət dəstəyi mexanizmləri, innovasiya potensialı və bazar infrastrukturunun inkişaf səviyyəsi xüsusi yer tutur. Bu amillər bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək məhsulun bazar mövqeyini müəyyən edir.

Pambıq məhsulları üzrə rəqabət qabiliyyətinin for-

malaşmasında keyfiyyət göstəriciləri mühüm əhəmiyyət daşıyır. Beynəlxalq bazarlarda lif uzunluğu, möhkəmlik, rəng göstəriciləri və çirklənmə səviyyəsi kimi parametrlər məhsulun qiymətinə birbaşa təsir göstərir. Buna görə də pambıq istehsalçısı olan ölkələr davamlı olaraq keyfiyyət standartlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirirlər [13].

Rəqabət qabiliyyətinin mühüm komponentlərindən biri də əlavə dəyər yaradan emal sənayesinin inkişafıdır. Dünya təcrübəsi göstərir ki, pambığın xammal şəklində ixracı ilə müqayisədə onun iplik, parça və hazır tekstil məhsulu formasında satışından daha yüksək iqtisadi səmərə əldə edilir. Bu səbəbdən inkişaf etmiş pambıq istehsalçısı ölkələr emal sənayesinin genişləndirilməsini strateji istiqamət kimi müəyyən etmişlər [19].

2. AZƏRBAYCAN PAMBIQ SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİNİN İQTİSADİ TƏHLİLİ

Azərbaycanda pambıqçılıq uzun illər ərzində kənd təsərrüfatının aparıcı sahələrindən biri olmuşdur. Müstəqilliyin ilk illərində iqtisadi transformasiya prosesləri nəticəsində pambıq istehsalında müəyyən azalmalar müşahidə edilsə də, sonrakı dövrdə dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər bu sahənin yenidən inkişafına təkan vermişdir. Xüsusilə regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində pambıqçılığın dəstəklənməsi kənd yerlərində məşğulluğun artırılmasına və kənd təsərrüfatı məhsullarının ixrac potensialının genişlənməsinə müsbət təsir göstərmişdir [1; 2; 3].

Son illərdə pambıqçılığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər əkin sahələrinin genişlənməsinə və məhsul istehsalının artmasına səbəb olmuşdur.

Cədvəl 1
Azərbaycanda pambıq istehsalının əsas göstəriciləri

Göstəricilər	2020	2021	2022	2023	2024
Əkin sahəsi (min ha)	100,1	100,6	100,0	112,8	119,2
Məhsul istehsalı (min ton)	336,8	287,0	322,6	277,7	315,8
Məhsuldarlıq (sentner/ha)	33,6	28,5	32,3	24,6	26,5

Mənbə: *Dövlət Statistika Komitəsinin "Kənd təsərrüfatı" bölməsi üzrə 2020–2024-cü illərin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, 2020–2024-cü illərdə Azərbaycanda pambıq əkin sahələri ümumilikdə artmışdır. Bununla yanaşı, məhsul istehsalı və məhsuldarlıq göstəricilərində müəyyən dəyişkənlik müşahidə edilmişdir. Bu dəyişikliklər əsasən iqlim şəraiti, su təminatı və aqrotexniki tədbirlərin tətbiqi səviyyəsi ilə əlaqədardır.

Dövlət tərəfindən subsidiyaların verilməsi, texnika təminatının yaxşılaşdırılması, gübrə və pestisidlərə güzəştlərin tətbiqi istehsalçıların bu sahəyə marağını artırmışdır.

Pambıqçılığın inkişaf etdiyi əsas bölgələr sırasında Saatlı, Sabirabad, Biləsuvar, İmişli, Bərdə, Ağcabədi, Beyləqan, Zərdab, Neftçala və Salyan rayonları xüsusi yer tutur. Bu rayonlar əlverişli torpaq-iqlim şəraiti və uzun illər formalaşmış istehsal təcrübəsi ilə seçilir.

Müasir mərhələdə pambıq istehsalının səmərəliliyinin artırılması məqsədilə yeni texnologiyaların tətbiqinə daha çox diqqət yetirilir. Dəqiq əkinçilik elementlərinin tətbiqi, suvarma sistemlərinin təkmilləşdirilməsi və yüksək məhsuldar toxum sortlarından istifadə məhsuldarlığın artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

2.1. Pambıq istehsalının iqtisadi əhəmiyyəti

Pambıqçılıq yalnız kənd təsərrüfatı sahəsi kimi deyil, həm də aqrar-sənaye kompleksinin inkişafını təmin edən mühüm istiqamət kimi qiymətləndirilir. Pambıq xammalının istehsalı ilə yanaşı onun emalı, daşınması, saxlanılması və ixracı müxtəlif iqtisadi fəaliyyət sahələrinin inkişafına şərait yaradır.

Bu sahənin inkişafı aşağıdakı istiqamətlər üzrə mühüm nəticələr verir:

- kənd yerlərində məşğulluğun artırılması;
- əhalinin gəlirlərinin yüksəldilməsi;
- qeyri-neft ixracının genişləndirilməsi;
- emal sənayesinin inkişafı;
- regionların iqtisadi fəallığının artırılması;
- dövlət büdcəsinə daxilolmaların çoxaldılması.

Pambıqçılıq xüsusilə kənd əhalisinin məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Əkin, becərmə, yığım və emal prosesləri minlərlə insanın əmək fəaliyyəti ilə məşğul olmasına imkan yaradır. Bu baxımdan pambıqçılığın inkişafı regionlarda sosial sabitliyin möhkəmləndirilməsinə də xidmət edir [4; 6; 7].

2.2. Azərbaycan pambığının ixrac potensialının qiymətləndirilməsi

Qlobal bazarda pambığa olan tələbatın davam et-

məsi Azərbaycan üçün əlverişli imkanlar yaradır. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, son illərdə pambıq lifi və pambıq məhsullarının ixracında müsbət dinamika müşahidə edilmişdir ki, bu da sahənin ixrac potensialının genişlənməsini göstərir. Dünya tekstil sənayesinin inkişafı pambıq məhsullarına olan ehtiyacı artırır. Xüsusilə təbii liflərə marağın yüksəlməsi pambıq istehsalçısı ölkələrin ixrac perspektivlərini genişləndirir.

Azərbaycan pambığının ixrac potensialı aşağıdakı amillərlə şərtlənir:

- əlverişli coğrafi mövqe;
- beynəlxalq nəqliyyat dəhlizlərinə çıxış;
- pambıqçılıq ənənələrinin mövcudluğu;
- dövlət dəstəyi proqramları;
- ixrac infrastrukturunun inkişafı;
- emal müəssisələrinin fəaliyyət göstərməsi.

Bununla yanaşı, ixrac potensialının tam reallaşdırılmasına mane olan müəyyən problemlər də mövcuddur. Bunlara məhsuldarlığın bəzi rəqib ölkələrlə müqayisədə aşağı olması, emal səviyyəsinin kifayət qədər inkişaf etməməsi və beynəlxalq sertifikatlaşdırma sistemlərinin məhdud tətbiqi aid edilə bilər [3; 8; 16].

2.3. Azərbaycan pambıq sektorunun SWOT təhlili

Pambıq sektorunun mövcud vəziyyətinin daha əhatəli qiymətləndirilməsi məqsədilə SWOT təhlilindən istifadə etmək məqsədəuyğundur.

Güclü tərəflər:

- əlverişli torpaq və iqlim şəraiti;
- dövlət dəstəyi mexanizmlərinin mövcudluğu;
- pambıqçılıq üzrə formalaşmış təcrübə;
- ixrac imkanlarının mövcudluğu;
- regional əmək ehtiyatlarının kifayət qədər olması.

Zəif tərəflər:

- bəzi təsərrüfatlarda aşağı məhsuldarlıq;
- innovativ texnologiyaların məhdud tətbiqi;
- emal müəssisələrinin sayının məhdudluğu;
- beynəlxalq sertifikatlaşdırmanın yetərincə inkişaf etməməsi;
- logistika xərclərinin yüksəkliyi.

İmkanlar:

- yeni ixrac bazarlarına çıxış;
- tekstil sənayesinin inkişafı;
- rəqəmsal kənd təsərrüfatının tətbiqi;
- ekoloji təmiz məhsul istehsalının genişləndirilməsi;
- beynəlxalq investisiyaların cəlb olunması.

Təhlükələr:

- dünya bazarında qiymət dəyişkənliyi;
- iqlim dəyişiklikləri;
- su ehtiyatlarının məhdudlaşması;
- beynəlxalq rəqabətin güclənməsi;
- xarici bazarlarda texniki baryerlərin artması.

SWOT təhlili göstərir ki, Azərbaycanın pambıq sektoru mühüm potensiala malikdir. Mövcud üstünlüklərdən səmərəli istifadə edilməklə və zəif tərəflərin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilməklə beynəlxalq bazarlarda daha güclü mövqe qazanmaq mümkündür [5; 11].

Cədvəl 2
Azərbaycan pambığının rəqabət qabiliyyətinə təsir edən əsas amillər

Amillər	Mövcud vəziyyət	Rəqabət qabiliyyətinə təsiri
İqlim şəraiti	Əlverişli	Müsbət
Dövlət subsidiyaları	Mövcuddur	Müsbət
Emal sənayesi	Qismən inkişaf etmiş	Orta
Logistika xərcləri	Nisbətən yüksək	Mənfi
Sertifikatlaşdırma	Məhdud	Mənfi
Yeni texnologiyalar	Tam tətbiq olunmur	Mənfi
İşçi qüvvəsi	Kifayət qədərdir	Müsbət

Mənbə: *Müəllif tərəfindən SWOT təhlili əsasında hazırlanmışdır.*

Cədvəl 2 göstərir ki, Azərbaycanın pambıqçılıq sahəsi əlverişli təbii şərait və dövlət dəstəyi kimi mühüm üstünlüklərə malikdir. Eyni zamanda emal sənayesinin məhdud inkişafı, logistika xərclərinin yüksəkliyi və beynəlxalq sertifikatlaşdırmanın yetərincə tətbiq olunmaması sahənin əsas problemləri kimi çıxış edir.

2.4. Pambıq məhsullarının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi

Beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin müəyyən edilməsində məhsulun keyfiyyəti əsas göstəricilərdən biri hesab olunur. Pambıq lifinin uzunluğu, elastikliyi, möhkəmliyi, rəngi və təmizliyi alıcıların seçimlərinə əhəmiyyətli təsir göstərir.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə tətbiq olunan keyfiyyət standartları pambıq istehsalçıları qarşısında yeni tələblər müəyyənləşdirir. Bu baxımdan Azərbaycan pambığının beynəlxalq standartlara uyğun istehsalı və sertifikatlaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aşağıdakı nəticələrin əldə olunmasına imkan verir [13]:

- ixrac qiymətlərinin yüksəldilməsi;
- yeni bazarlara çıxış imkanlarının genişlən-

məsi;

• alıcı etimadının artırılması;

• uzunmüddətli müqavilələrin bağlanması;

• məhsulun rəqabət üstünlüyünün gücləndirilməsi.

Beləliklə, pambıq məhsullarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması Azərbaycanın qlobal bazarlardakı mövqeyinin möhkəmləndirilməsinin əsas şərtlərindən biri kimi çıxış edir.

3. DÜNYA PAMBIQ BAZARINDA MÜASİR TENDENSİYALAR VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Müasir dövrdə pambıq dünya üzrə ən mühüm texniki bitkilərdən biri hesab olunur. Tekstil sənayesinin əsas xammal bazasını təşkil edən pambıq qlobal kənd təsərrüfatı məhsulları bazarında strateji mövqeyə malikdir. Dünya bazarında pambıq istehsalı və ticarəti bir sıra amillərin təsiri altında formalaşır. Bu amillər sırasında əhali artımı, tekstil sənayesinin inkişafı, ekoloji standartlar, texnoloji yeniliklər və beynəlxalq ticarət münasibətləri xüsusi yer tutur.

Son illərdə dünya bazarında təbii liflərə marağın artması pambıq məhsullarına olan tələbatı yüksəltmişdir [13; 16]. Sintetik materialların ətraf mühitə mənfi təsirləri barədə məlumatlılığın artması istehlakçıların təbii mənşəli məhsullara üstünlük verməsinə səbəb olmuşdur. Bu vəziyyət pambıq istehsalçısı ölkələr üçün yeni imkanlar yaratmışdır.

3.1 ABŞ təcrübəsi

ABŞ dünya pambıq bazarının əsas iştirakçılarından biridir. Ölkədə pambıqçılığın inkişafı yüksək texnologiyaların tətbiqi, innovativ idarəetmə sistemləri və güclü dövlət dəstəyi hesabına təmin edilir.

ABŞ-da pambıq istehsalında aşağıdakı amillər xüsusi əhəmiyyət daşıyır:

– yüksək məhsuldarlığa malik toxum sortları;

– tam mexanikləşdirilmiş yığım sistemi;

– rəqəmsal monitorinq texnologiyaları;

– keyfiyyətə ciddi nəzarət mexanizmləri;

– inkişaf etmiş logistika infrastrukturu.

Bu amillər ABŞ pambığının beynəlxalq bazarlarda rəqabət üstünlüyünü təmin edir [13].

ABŞ dünya pambıq ixracında aparıcı mövqelərdən birini tutur və qlobal pambıq ticarətində əsas iştirakçılardan hesab olunur. Bu ölkədə məhsuldarlığın yüksək olması rəqabət üstünlüyünün əsas mənbələrindən biridir.

3.2 Çin təcrübəsi

Çin dünya pambıq istehsalı və emalı sahəsində aparıcı ölkələrdən biri hesab olunur. Ölkə yalnız iri həcmdə pambıq istehsal etməklə kifayətlənmir, eyni zamanda pambıq xammalının emalı və hazır tekstil məhsullarının ixracı üzrə də mühüm mövqeyə malikdir. Bu baxımdan Çin təcrübəsi pambıqçılığın kompleks inkişaf modelinin uğurlu nümunəsi kimi qiymətləndirilə bilər.

Çində pambıq istehsalının səmərəliliyinin yüksəldilməsi məqsədilə müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Dəqiq əkinçilik sistemləri, peyk müşahidələri, avtomatlaşdırılmış suvarma texnologiyaları və yüksək məhsuldarlığa malik toxum sortlarından istifadə istehsal göstəricilərinin yüksəlməsinə şərait yaradır.

Ölkədə pambıqçılığın inkişafı ilə tekstil sənayesi arasında sıx əlaqə mövcuddur. İstehsal olunan pambığın böyük hissəsi daxildə emal olunur və yüksək əlavə dəyərə malik məhsullar şəklində beynəlxalq bazarlara çıxarılır. Bu yanaşma xammal ixracından əldə edilən gəlirlərlə müqayisədə daha yüksək iqtisadi səmərə formalaşdırır.

Çin təcrübəsinin mühüm xüsusiyyətlərindən biri də dövlət dəstəyinin sistemli xarakter daşımasıdır. Fermerlərə subsidiyaların verilməsi, innovativ layihələrin maliyyələşdirilməsi, elmi-tədqiqat işlərinin təşviqi və logistika infrastrukturunun inkişaf etdirilməsi pambıq sektorunun davamlı inkişafına müsbət təsir göstərir.

Azərbaycan üçün Çin təcrübəsinin əsas əhəmiyyəti pambıq istehsalı ilə emal sənayesinin inteqrasiyasının gücləndirilməsi, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi və ixracyönümlü tekstil sənayesinin inkişaf etdirilməsi istiqamətlərində özünü göstərir. Bu yanaşmanın tətbiqi pambıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə və qeyri-neft ixracının artırılmasına mühüm töhfə verə bilər.

3.3 Hindistan təcrübəsi

Hindistan dünyanın ən böyük pambıq istehsalçılarından biridir. Ölkənin pambıqçılıq sahəsində əldə etdiyi uğurlar əsasən geniş əkin sahələri və fermerlərin dövlət proqramları vasitəsilə dəstəklənməsi ilə əlaqədardır.

Hindistanda son illərdə:

– məhsuldar toxum növlərinin tətbiqi;

– kənd təsərrüfatı məsləhət xidmətlərinin genişləndirilməsi;

– suvarma sistemlərinin təkmilləşdirilməsi;

– ixrac təşviqi proqramlarının həyata keçirilməsi mühüm nəticələr vermişdir [18].

Hindistanın təcrübəsi göstərir ki, fermerlərin dövlət proqramları vasitəsilə dəstəklənməsi və müasir aqrotexnologiyaların tətbiqi pambıq istehsalının da-

vamlı inkişafına mühüm təsir göstərir.

3.4 Türkiyə təcrübəsi

Türkiyə Azərbaycan üçün ən maraqlı təcrübələrdən biri hesab edilə bilər. Ölkədə pambıq istehsalı ilə yanaşı, güclü tekstil sənayesi formalaşdırılmışdır.

Türkiyənin uğurunun əsas səbəbləri bunlardır:

– pambığın emal səviyyəsinin yüksək olması;

– beynəlxalq brendlərlə əməkdaşlıq;

– keyfiyyət standartlarının tətbiqi;

– logistika imkanlarının inkişafı;

– məhsulların beynəlxalq bazarlarda tanıdılması.

Türkiyə təcrübəsi göstərir ki, xammal ixracından daha çox əlavə dəyər yaradan məhsulların istehsalı iqtisadi səmərəliliyin yüksəlməsinə səbəb olur [19].

Bu model Azərbaycan üçün də əhəmiyyətli hesab olunur və pambıq əsasında tekstil sənayesinin inkişaf etdirilməsi qeyri-neft ixracının artırılmasına şərait yarada bilər.

Cədvəl 3

Azərbaycan, Türkiyə, Hindistan və Çin pambıq sektorlarının müqayisəli göstəriciləri

Göstərici	Azərbaycan	Türkiyə	Hindistan	Çin
Məhsuldarlıq	Orta	Yüksək	Orta	Yüksək
Emal səviyyəsi	Orta	Yüksək	Yüksək	Çox yüksək
İxrac imkanları	Artmaqdadır	Yüksək	Yüksək	Çox yüksək
Sertifikatlaşdırma	Məhdud	Geniş	Geniş	Geniş
Rəqəmsal texnologiyaların tətbiqi	Məhdud	Yüksək	Orta	Yüksək
Brend tanınması	Aşağı	Yüksək	Orta	Yüksək

Mənbə: FAO (2024), International Cotton Advisory Committee (2024) məlumatları və müəllifin hesablamaları əsasında tərtib edilmişdir.

Cədvəl 3-ün təhlili göstərir ki, Azərbaycan pambıqçılıq sahəsində mühüm potensiala malik olsa da, emal səviyyəsi, rəqəmsal texnologiyaların tətbiqi, beynəlxalq sertifikatlaşdırma və bazar tanınması baxımından Çin, Türkiyə və Hindistan kimi ölkələrdən geri qalır. Xüsusilə Çinin emal sənayesi və innovativ texnologiyaların tətbiqi sahəsində əldə etdiyi nailiyyətlər diqqəti cəlb edir. Bu istiqamətlər üzrə məqsədyönlü tədbirlərin həyata keçirilməsi Azərbaycanın beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

4. AZƏRBAYCAN PAMBIĞININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

4.1. İstehsal və emal səmərəliliyinin artırılması istiqamətləri

Azərbaycan pambığının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi ilk növbədə istehsal və emal proseslərinin təkmilləşdirilməsindən asılıdır. Bu məqsədlə yüksək məhsuldarlığa malik toxum sortlarının tətbiqi, müasir suvarma texnologiyalarından istifadə və aqrotexniki tədbirlərin keyfiyyətinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. İstehsal prosesində rəqəmsal texnologiyaların tətbiqi məhsuldarlığın artırılmasına, xərclərin azaldılmasına və resurslardan daha səmərəli istifadəyə imkan yaradır.

Rəqabət qabiliyyətinin artırılmasında pambığın emal səviyyəsinin yüksəldilməsi də xüsusi rol oynayır. Xammal pambığın ixracı ilə müqayisədə onun iplik, parça və digər tekstil məhsulları şəklində ixracı daha yüksək əlavə dəyər formalaşdırır. Buna görə də pambıq emalı müəssisələrinin inkişaf etdirilməsi, yeni investisiyaların cəlb olunması və tekstil sənayesinin genişləndirilməsi mühüm vəzifələrdən biri hesab edilməlidir [5; 10].

4.2. İxrac potensialının və bazar imkanlarının genişləndirilməsi

Azərbaycan pambığının beynəlxalq bazarlarda mövqeyinin möhkəmləndirilməsi üçün məhsulun keyfiyyət standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması vacibdir. Sertifikatlaşdırma sistemlərinin tətbiqi və məhsul keyfiyyətinə nəzarətin gücləndirilməsi xarici bazarlarda etibarlılığın artırılmasına şərait yaradır.

Bununla yanaşı, logistika infrastrukturunun inkişaf etdirilməsi və nəqliyyat xərclərinin azaldılması ixracın səmərəliliyinə müsbət təsir göstərir. Xarici bazarlarda marketinq fəaliyyətinin genişləndirilməsi, beynəlxalq sərgilərdə iştirak və "Azərbaycan pambığı" brendinin təşviqi məhsulların tanınmasına və yeni bazarlara çıxış imkanlarının artmasına kömək edə bilər. Bu tədbirlər pambıq məhsullarının ixrac həcminin artırılmasına və beynəlxalq bazarlarda rəqabət üstünlüyünün formalaşmasına xidmət edir [8; 15; 16; 17].

5. AZƏRBAYCAN PAMBIQÇILIĞININ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qloballaşma şəraitində aqrar məhsullar bazarında rəqabətin güclənməsi pambıq istehsalçısı ölkələr qarşısında yeni vəzifələr müəyyən edir. Azərbaycanın mövcud potensialı göstərir ki, məqsədyönlü iqtisadi siyasət və müasir texnologiyaların tətbiqi nəticəsində pambıq məhsullarının beynəlxalq bazarlardakı mövqeyini daha da möhkəmləndirmək mümkündür.

Pambıqçılığın gələcək inkişafı yalnız istehsal həcmlərinin artırılması ilə məhdudlaşmamalıdır.

Əsas məqsəd istehsalın səmərəliliyinin yüksəldilməsi, keyfiyyət göstəricilərinin yaxşılaşdırılması və yüksək əlavə dəyər yaradan məhsulların istehsalının genişləndirilməsindən ibarət olmalıdır.

5.1. İnnovativ inkişaf və insan kapitalının gücləndirilməsi

Müasir dövrdə pambıqçılığın davamlı inkişafı innovativ texnologiyaların tətbiqindən və ixtisaslı insan resurslarının formalaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Aqrar sektorda rəqəmsallaşma prosesinin genişlənməsi, dəqiq əkinçilik texnologiyalarının tətbiqi və avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə istehsalın səmərəliliyini yüksəldir. Peyk monitorinqi, elektron məlumat bazaları və rəqəmsal nəzarət mexanizmləri fermerlərə daha operativ qərarlar qəbul etməyə imkan verir.

Bununla yanaşı, pambıqçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin peşə hazırlığının artırılması və fermerlərin müasir aqrar biliklərlə təmin olunması xüsusi əhəmiyyət daşıyır. Elmi-tədqiqat müəssisələri ilə istehsal sektorunun əməkdaşlığının genişləndirilməsi innovasiyaların praktikaya tətbiqini sürətləndirə və sahənin rəqabət qabiliyyətini yüksəldə bilər [4; 6; 10].

5.2. Davamlı inkişaf və yeni ixrac bazarlarının formalaşdırılması

Qlobal iqtisadiyyatda ekoloji tələblərin artması pambıq istehsalında yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqini zəruri edir. Ekoloji cəhətdən təhlükəsiz istehsal texnologiyalarının tətbiqi, su resurslarından səmərəli istifadə və torpaq münbitliyinin qorunması uzunmüddətli inkişafın əsas şərtlərindən hesab olunur. Eyni zamanda üzvi pambıq istehsalının genişləndirilməsi beynəlxalq bazarlarda məhsulun rəqabət üstünlüyünü artıra bilər.

Azərbaycan pambığının ixrac potensialının artırılması üçün yeni bazarların araşdırılması və mövcud bazarlarda mövqelərin möhkəmləndirilməsi vacibdir. Avropa İttifaqı ölkələri, Yaxın Şərq, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya regionları perspektiv ixrac istiqamətləri kimi qiymətləndirilə bilər. Beynəlxalq keyfiyyət standartlarına uyğun məhsul istehsalı və effektiv marketinq strategiyalarının həyata keçirilməsi yeni bazarlara çıxış imkanlarını genişləndirə və pambıq məhsullarının ixrac həcminin artmasına şərait yarada bilər [14; 15; 16; 17].

NƏTİCƏ

Aparılmış araşdırmalar göstərir ki, pambıqçılığın inkişafı yalnız kənd təsərrüfatı sektorunun deyil, bütövlükdə qeyri-neft iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Xüsusilə emal sənayesinin genişləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq keyfiyyət standartlarına uyğun istehsalın təşkili Azərbaycanın qlobal pambıq bazarında mövqeyini gücləndirə bilər. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər uzunmüddətli perspektivdə ixrac gəlirlərinin və regionların iqtisadi fəallığının artmasına şərait yaradacaqdır.

Beləliklə, Azərbaycan pambıqçılığının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi kompleks və sistemli tədbirlərin həyata keçirilməsini tələb edir. İstehsalın modernləşdirilməsi, emal sənayesinin inkişafı, beynəlxalq sertifikatlaşdırma sistemlərinin tətbiqi, innovativ texnologiyaların genişləndirilməsi və ixrac bazarlarının şaxələndirilməsi bu istiqamətdə əsas prioritetlər hesab edilməlidir. Həyata keçiriləcək tədbirlər pambıqçılığın davamlı inkişafını təmin etməklə yanaşı, ölkənin qeyri-neft sektorunun güclənməsinə və ixrac gəlirlərinin artmasına da mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi. Aqrar inkişaf üzrə illik hesabatlar. Bakı, 2024.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın kənd təsərrüfatı statistik göstəriciləri. Bakı, 2024.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Qeyri-neft ixracının inkişaf istiqamətləri. Bakı, 2023.
4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri: nəzəriyyə və praktika. Bakı: Kooperasiya nəşriyyatı, 2017.- 536 s.
5. Ağayev E.M. Kənd təsərrüfatında rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2022.
6. Əliyev İ.H. Aqrar siyasətin prioritet istiqamətləri. Bakı, 2021.
7. Cəfərov T.N. Kənd təsərrüfatı məhsullarının ixrac potensialı. Bakı, 2022.
8. Həsənov R.A. Azərbaycanın ixrac strategiyası və inkişaf perspektivləri. Bakı, 2023.
9. Hüseynov S.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı: Təhsil, 2021.
10. İbrahimov E.M. Kənd təsərrüfatında innovativ texnologiyalar. Bakı, 2023.
11. Məmmədov F.Q. Aqrar bazarların inkişaf problemləri. Bakı, 2022.
12. Quliyev A.İ. Qlobal iqtisadiyyatda rəqabət üstünlükləri. Bakı, 2021.
13. International Cotton Advisory Committee. Cotton Market Report. Washington, 2024.

14. OECD. Agricultural Policy Monitoring and Evaluation. Paris, 2023.
15. UNCTAD. Commodities and Development Report. Geneva, 2023.
16. WTO. World Trade Statistical Review. Geneva, 2024.
17. International Trade Centre. Trade Map Report. Geneva, 2024.
18. Sharma R. Cotton Production and Export Competitiveness. New Delhi, 2022.
19. Kaya M. Turkish Textile Industry and Cotton Market. Ankara, 2023.

DIRECTIONS FOR IMPROVING THE COMPETITIVENESS OF AZERBAIJANI COTTON IN INTERNATIONAL MARKETS

Leila Intigam Tagiyeva
Azerbaijan State University of Economics (UNEC)
Department of Humanities, Lecturer

SUMMARY

The article examines the main directions for improving the competitiveness of Azerbaijani cotton in international markets. The study analyzes the current state of cotton production, identifies factors influencing competitive advantages, and evaluates opportunities for increasing export potential. Special attention is paid to quality improvement, modernization of processing industries, logistics development, certification systems, and marketing strategies. The research concludes that strengthening competitiveness in international markets can significantly contribute to the expansion of non-oil exports and sustainable economic development in Azerbaijan.

Keywords: *cotton production, cotton export, competitiveness, international markets, agricultural sector, textile industry, logistics.*

НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ АЗЕРБАЙДЖАНСКОГО ХЛОПКА НА МЕЖДУНАРОДНЫХ РЫНКАХ

Лейла Интигам Тагиева
Азербайджанский Государственный Экономический Университет (UNEC)
Кафедра гуманитарных дисциплин, преподаватель

РЕЗЮМЕ

В статье исследуются основные направления повышения конкурентоспособности азербайджанского хлопка на международных рынках. Рассматриваются современное состояние хлопководства, факторы формирования конкурентных преимуществ и возможности расширения экспортного потенциала. Особое внимание уделяется вопросам повышения качества продукции, развития перерабатывающей промышленности, совершенствования логистической инфраструктуры и внедрения международных стандартов сертификации. Сделан вывод о том, что повышение конкурентоспособности хлопковой продукции будет способствовать развитию не нефтяного сектора экономики Азербайджана.

Ключевые слова: *хлопководство, экспорт хлопка, конкурентоспособность, международный рынок, аграрный сектор, текстильная промышленность, логистика.*

Rəyçi: Azərbaycan dövlət İqtisad Universiteti
İqtisadiyyat kafedrasının dosenti N.Ə.Sadıqov

Məqalə redaksiyaya daxil olub: 02.08.2026
Çapa qəbul olunub: 24.08.2026
The date of the admission of the article to the editorial office: 02.08.2026
Accepted for publication: 24.08.2026